# QASIMOV İXTİYAR QASIM OĞLU



Qasımov İxtiyar 22 mart 1970-ci ildə Ağdam rayonunun Salahlı kəndində doğulmuşdur. 1977-ci ildə kənd orta məktəbinin birinci sinfinə getmiş və səkkizinci sinfədək burada təhsil almışdır. İxtiyar 1985-ci ildə Bakıya gəlir və təhsilini kimya-biologiya təmayüllü məktəbdə davam etdirir. Məktəbi uğurla bitirir. O, sənədlərini Gəncə Kənd Təsərrüfatı Akademiyasına verir, aqronomluq fakültəsinə daxil olur. O, ilk kursdan fərqlənməyə başlayır. 1992-ci ilin yanvarında tələbələr istehsalat təcrübəsinə buraxılmışdı. O, fürsətdən istifadə edib hərbi komissarlığa müraciət edir. O, 836 saylı hərbi hissənin 3-cü batalyonunda əlinə silah götürür. İ.Qasımov döyüşə kəşfiyyatçı kimi başlayır. Seçdiyi düzgün plan nəticəsində Qazançı kəndində ermənilərin üç PDM-i, bir zirehli maşını və onlarla canlı qüvvəsi məhv edilir. İ. Qasımov 15 mayda düşmənin Gülablı kəndinə basqınının qarşısının alınmasında xüsusi olaraq fərqlənir. 14 lyul 1992-ci ildə ermənilər Canyataq kəndinə hücuma keçirlər. Döyüş zamanı əsgərlərimizdən bir neçəsi yaralanır. İxtiyar onların düşmən əlinə keçməsindən ehtiyat edərək özünü qabağa atıb düşmənlə üzbəüz dayanır. O, əks-hücumun qarşısını təkbaşına almağa müvəffəq olur. Yaralıları xilas edirlər. İxtiyarın özü isə qəhrəmancasına həlak olur. Salahlı kənd qəbirstanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Qasımov İxtiyar Qasım oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Vaxtilə oxuduğu Salahlı kənd orta məktəbi onun adını daşıyır.